*T.ü.f.d.* **Abışov Vaqif**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu,*
*aparıcı elmi işçi,*
*vaqif.abishov1955@gmal.com*

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN SÜQUTUNUN MÜHACİRƏT TARİXŞÜNASLIĞINDA ƏKSİ

**Açar sözlər:** M.Ə.Rəsulzadə, M.B.Məmmədzadə, H.Baykara, N.Şeyxzamanlı, Türkiyə, Sovet Rusiyası.
**Keywords:** M.A.Rasulzadeh, M.B.Mammadzadeh, H.Baykara, N.Sheykhzamanly, Turkey, Soviet Russia.
**Ключевые слова:** М.Э.Расулзаде, М.Б.Мамедзаде, Х.Байкара, Н.Шейхзаманлы, Турция, Советская Россия.

Mühacirət tarixşünaslığını yaradanlar, 1917-1920-ci illərin ictimai-siyasi hadisələrində aktiv iştirak etmiş, Şərqdə ilk demokratik Respublika qurmuş, 1920-ci ilin aprel çevrilişindən sonra məcburən xarici ölkələrə mühacirətə getmiş və uzun müddət mühacirətdə olmalarına baxmayaraq, Azərbaycanın müstəqilliyinin bərpa olunması uğrunda yorulmadan mübarizə aparmış insanlar idilər. Onların yazdıqları əsərlər həm mənbəşünaslıq, həm də tarixşünaslıq baxımından olduqca qiymətlidir.

Tam əminliklə qeyd olunmalıdır ki, araşdırılan problem ilə əlaqədar olaraq mühacirət ədəbiyyatı, sovet tarix elminə qarşı bir alternativ tarixşünaslıq olmuşdur. Bu tarixşünaslıq tarixi hadisələrə obyektivlik, əhəmiyyətlilik və tarixçilik prinsiplərindən yanaşdığına görə tədqiq olunan dövrün tarixi reallıqlarını özündə əks etdirə bilmişdir.

Məqalə hazırlanarkən, əsasən M.Ə.Rəsulzadə (1, 2, 3, 4, 6), M.B.Məmmədzadə (7), H.Baykara (8) və N.Şeyxzamanlının (9) əsərləri təhlil olunmuşdur.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradanlardan biri olan M.Ə.Rəsulzadənin "Azərbaycan Cümhuriyyəti" adlı əsərinin (1) müqəddimə adlanan hissəsində AXC ilə Sovet Azərbaycanı arasındakı fərqi izah edərkən yazırdı ki, Milli Azərbaycan ilə indiki Azərbaycan arasındakı bir çoxları dərk edə bilmirlər. Azərbaycan müstəqil ikən get-gedə bütün hüququnun Rusiyaya nədən tərk edildiyini, azərbaycanlıların buna nə üçün razı olduqlarını sonralar rast gəldik. Bolşeviklərin Azərbaycana millət tərəfindən çağrılmış olduqlarına inananlar var idi (1, s. 10).

M.Ə.Rəsulzadə Denikinə nisbətən Lenini daha qorxulu qüvvə olduğunu qeyd etmiş, Azərbaycanın üzərinə gələn bolşevik Rusiyası ilə 1918-ci il bolşevik Rusiyasını fərqləndirmiş və bunun "ondan daha qorxunc bir qüvvət" olduğunu qeyd etmişdi (1, s. 33).

İmperialistlərə qarşı mübarizə aparan Türkiyənin ağır vəziyyətini yaxşı başa düşən M.Ə.Rəsulzadə, bolşeviklərin "Türkiyə dərdi ilə yanan Azərbaycan qəlbinin həssas nöqtəsinə" vurduğunu dilə gətirmişdir. Daha sonra o, bolşeviklərin Türkiyəyə yardım etmək şüarına aldanan bir qrup türk zabitlərinin bolşevikləri dərindən tanımadıqlarını və bu şüarın "bolşevikləri yalnız sözləri ilə tanıyan və onlarla əlaqəsi olmayan bəzi türk siyasi xadimləri və zabitləri üzərində pək böyük bir təsir"i olduğunu vurğulamışdır (1, s. 62).

O, "Əsrimizin Siyavuşu" adlı əsərində yazırdı: "Rusiya ölüm-qalım mücadiləsində olan Türkiyəyə yardıma gedirmiş və ingilis tərəfdarı Azərbaycan hökuməti ona yol vermirmiş – deyə apardığı təbliğatları bolşevik sui-qəsdlərinin ortaq günahkarı olub, Qafqasiyanın Rusiya tərəfindən təkrar istilasını hazırlayırdı" (2, s. 46). M.Ə.Rəsulzadə vəziyyətin belə bir halda olduğu vaxtda qəflətən bolşevik əsgəri aprelin 26-da sərhədə təcavüz etdiyinin xəbəri alındığını və sərhəddə durmalı olan əsgərlər Qarabağ və Qazax cəbhələrində məşğul olduğundan 60 min miqdarında təcavüz edən düşmənə qarşı iki saata qədər müqavimət göstərdikdən sonra geri çəkilmək məcburiyyətində qaldıqlarını qeyd etmişdir (1, s. 66).

Aprelin 28-dən etibarən üç rəngli Azərbaycan bayrağı qismən Qızıl Sovet və qismən də Osmanlı bayrağına əvəz edilmişdir. Bakının Qızıl Ordu tərəfindən işğalından iki gün sonra Türk komandanlar rus yoldaşlarla əvəz edildi. Hökumətin ən məsul mövqelərini rus, erməni, gürcü və türk

olmayan xaricdən gələn yabançılara verdilər. İxtiladan bir ay sonra artıq bütün Azərbaycan məmləkətinin müdhiş bir istilayə məruz qaldığını acı bir surətdə dərs eyləmişdir (1, s. 69).

M.Ə.Rəsulzadə Azərbaycan sovet hökumətinin və üsyan etmiş xalqın Qırmızı ordunun Azərbayacana dəvət edilməsinə də münasibət bildirmiş və bunu bolşevik siyasi manevrlərindən biri hesab etmişdir. O, "dəvət edən də özləri, icra edən də özləri" olduğunu göstərmişdir (1, s. 73).

Türklüyünü anlamış Azərbaycan ilə türklük üçün qan tökən, can verən Anadolu arasındakı qardaşlıq bağının tarixini nə indiki Türk-Rus təsadüfü münasibətləri, nə də bir qrup şəxsin siyasi xətaları həll edə bilməyəcəyini yazan (1, s. 78) M.Ə.Rəsulzadə, Türkiyə məsələsi heç bir zaman biz azərbaycanlılar üçün ürəyimizin ən nazik pərdələri ilə hiss olunan bir məsələ halında xaric olmadığını qeyd etmişdir (3, s. 437). Daha sonra o, yazırdı: "Rus hankı dinə girirsə-girsin yenə rusdur. Qara da olsa, qızıl da olsa rus imperializmi-imperializmdir. Rusiyada təbəddül (dəyişmə, başqa bir şəklə düşmə) edəcək şey, onun üsuli-idarəsidir. Qızıl imperializm böyük Rusiya inqilabının doğurduğu bir sistemdir" (1, s. 91).

O, Azərbaycan Xalq Cümhuriyyəti dövrünə bolşeviklərin "Müsavat dövrü" demələrinə də münasibət bildirmiş və "xalq bu dövrə Azərbaycan dövrü" dediyini, "İstiqlal xaricində onun üçün bir Azərbaycan" olmadığını bildirmişdir (1, s. 95).

M.Ə.Rəsulzadə tərəfindən AXC-nin ildönümü ilə bağlı yazılmış "Çağdaş Azərbaycan tarixi" adlı başqa bir əsərində (4) 1917-ci ildə Bakıda bolşeviklərin apardığı siyasi mübarizəyə toxunarkən, onların 1917-ci ildə Bakı Sovetində çoxluğu əldə etmək üçün hiylə və müdaxiləyə əl atdıqlarını, onların sosial dayağı yalnız rus və erməni əhalisi, eyni zamanda əsgər və matrosların bir hissəsinin olduğunu göstərmişdir (4, s. 4-5).

M.Ə.Rəsulzadə Şimali Azərbaycanın və o cümlədən Cənubi Qafqazın 1918-ci il istiqlalı və işğalından bəhs edərkən yazırdı ki, Azərbaycan, onunla bərabər bütün Qafqasiya Cümhuriyyətləri həqiqi azadlıq və istiqlalına 1918-ci ilin mayında qovuşdular. 1920-ci ildə isə bu azadlıq və istiqlal qızıl rus ordusu tərəfindən üstün qüvvətlərlə qanla və atəşlə basdırıldı (5, s. 8).

O, Cənubi Qafqazın işğalında xarici amili belə dəyərləndirmişdi: "o zaman İngilis baş naziri lord Corc, Londonda onu ziyarət edən Sovet xarici ticarət komissarı Krasinə Krallıq hökumətinin Qafqaz işləri ilə maraqlanmadığını bildirmişdi. Qafqazın ən yaxın qonşuları bulunan İran və Türkiyə, xüsusilə sonuncusu, bu zaman milli varlıqlarını qorumaq üçün bolşeviklərlə dostluq və hətta ittifaq bağlamaq zorunda idilər. Millətlərarası durumun bu şəkildə olması ən gənc Azərbaycan Cümhuriyyəti üçün çox faciəli sonluqlar doğurdu" (4, s. 4). M.Ə.Rəsulzadənin yuxarıda qeyd olunan fikirləri, o dövrün əsil reallıqlarını əks etdirirdi.

Qızıl ordunun yunanlara qarşı savaşda bulunan Kamal Türkiyəsinin yardımına getmək istədiklərini, "Müsavat" hökumətinin isə buna mane olduğunu təbliğ edib, bundan məharətlə istifadə edərək, Azərbaycanı zorla işğal edən bolşeviklər haqqında yazan M.Ə.Rəsulzadə, bunun "bolşeviklər tərəfindən şeytancasına qurulan taktika" kimi dəyərləndirmişdir. O, haqlı olaraq "bolşeviklərin aprel çevrilişi ərəfəsində Azərbaycanda sosial dayağa malik olmadığını" və "məmləkətin sosial, tarixi və mənəvi binası bolşevik təbliğatına uyğun olmadığını" yazmışdır (4, s. 4).

M.Ə.Rəsulzadə "Bolşeviklərin şərq siyasəti" adlı digər bir əsərində (6) də bolşeviklərin daxili və xarici siyasətini, milli məsələyə münasibətini və s. məsələləri təhlil etmişdir. O, xalqların öz müqəddəratını azad surətdə həll edə biləcək siyasətinə münasibət bildirərək yazırdı: "Millətlərin tabe olduqları bir dövlətdən ayrılmağa belə haqlı olduqlarını elan edərkən bolşeviklər şübhəsiz ki, səmimi deyildilər. Onlar bu haqqı millətin təbiətindən nəşət edən bir qiymət kimi dəyərləndirməyir. Zamanın ən təsirli bir şüarı olan bu fikri öz məqsədlərinə xidmət etdirmək üçün hiyləgər bir manevrə ilə istifadə edirlərdi" (6, s. 48). O, bolşeviklərin qurduğu sosializm cəmiyyətini xarakterizə edərkən onu "kəndliyə torpaq verib məhsulunu verməyən kommunizm" kimi dəyərləndirmişdi.

M.B.Məmmədzadənin "Milli Azərbaycan hərəkatı" adlı əsərində (7) aprel işğalının baş verməsi hadisəsinə ayrıca "Aprel istilası və "Müsavat" adlı fəsil ayırmışdır. Bu fəsildə o, Azərbaycan hökumətini devirmək üçün Sovet Rusiyasının yürütdüyü siyasəti açıb göstərmişdir. Onun fikrincə, Azərbaycanda bolşevik çevrilişi etmək üçün onların silahlı dəstələri olduqca az və zəif idi. Lakin bolşeviklərə təcili "Müsavat" hökumətini devirmək lazım idi. Onun fikrincə, müsəlman bolşeviklər arasında ruhən və məfkurə etibarilə kommunistliyi həzm etmiş çox az şəxsiyyət vardı. Azərbaycan





ordusunda bu fikrə tərəfdar olacaq adam yox idi (7, s. 137-138). Daha sonra rus ordusunun "26 aprel axşamı Azərbaycan sərhəddini keçərək Bakı üzərinə yürüşə" başladığını (7, s. 139) qeyd edən müəllif, "Azərbaycan kommunist partiyası "sərhədi keçən qızıl ordunun Bakıya daxil olmadan birbaşa Anadoluya gedəcəyinə" və "Azərbaycan ordusunun saxlanaraq dağıdılmayacağına" söz verdiklərini yazmışdır. Osmanlı zabitləri və Türkiyə kommunist partiyasının nümayəndələri küçələrə və məscidlərə toplaşan xalqın həyacanını "gələn ordunun bir neçə gün qonaq qaldıqdan sonra" Anadoluya gedecəyini vəd etməklə sakitləşdirə bilmişdilər (7, s. 150).

O, parlamentdə "Ultimatumu müdafiə edən müxalif firqələrin nəzərində" bu "təslim deyil, kabinə dəyişməsi" kimi başa düşdüklərini də qeyd etmişdir (7, s. 146).

27 aprel faciəsi ilə Azərbaycan ikinci dəfə olaraq Rusiya ordusunun yeni Sisianovu olan Orconikidzenin idarəsi altına girdiyini, "İnqilabdan" bir ay keçməmiş bütün Azərbaycan məmləkəti müdhiş bir istilaya məruz qaldığını acı şəkildə dərk edildiyini bildirən M.Məmmədzadə, yazırdı ki, ordusunun dağıldığını, zabitlərinin, ziyalılarının, dövlət və siyasət adamlarının həbs və edam edildiyini, sərvətinin yağmaya düçar olduğunu, milli əxlaq və adətlərinin təhqir olunduğunu, bayrağının endirilərək vətəninin Rusiyaya ilhaq edildiyini görən xalq üsyana qalxdı. Üsyanın bel sütununu milli ordumuz təşkil edirdi. Əvvəlcə, Gəncə qiyam etmiş, onunla bərabər Tərtər, Ağdam, Bərdə, Göyçay, Şəki, Quba, Lənkəran üsyan bayrağını qaldırmış, aylarla davam edən bu üsyanlarda ruslara mühüm tələfat verilmişdir (7, s. 154).

Moskva Şimali Azərbaycanda sovet hakimiyyəti qurulmasının Rusiya silahının köməyi ilə deyil, Azərbaycan zəhmətkeşlərinin "inqilabi mübarizəsi" və sovet ordusunun "qardaşlıq" köməyi nəticəsində baş verdiyini "sübut" etmək üçün 1920-1930-cu illərdə bir qrup rus, erməni və yəhudi tarixçilərini - S.Sefi, Sur.Şaumyanı, Y.Rathauzeri, A.Rayevskini, Q.Şteyni, A.Dubneri və başqalarını səfərbər edərək, onlara bir-birinin ardınca əsərlər yazdırılmışdı. Həmin şəxslər, sovet ideologiyasının tələblərinə uyğun olaraq, Azərbaycanda sovet hakimiyyəti qurulmasının "qanunauyğunluğunu" sübut etməyə çalışmışdılar.

Digər bir mühacirət tarixçisi olan Hüseyn Baykara "Azərbaycan istiqlal mübarizəsi tarixi" adlı əsərində (8) Azərbaycanın istiqlaliyyətinin itirilməsi məsələsinə müəyyən qədər aydınlıq gətirməyə çalışmış və bununla əlaqədar olaraq müxtəlif illərdə Türkiyədə çap olunmuş əsərləri təhlil etmişdir. H.Baykara Azərbaycan Anadolu xalqının və onun qurtuluş mübarizəsinin zəfəri üçün çox narahat olduğunu, ancaq müştərək bir hüdudun olmaması, yardım yollarının erməni və Antanta dövlətlərinin nəzarəti altında olduğuna görə Azərbaycan hökuməti Anadoluya kömək edə bilmədiyini, yenicə yaranan və hələ Antanta dövlətləri tərəfindən hüquqi baxımdan tanınmayan, Azərbaycan kimi kiçik bir dövlətin Anadolu milli hərəkatına yardım edə bilməsinə siyasi baxımdan imkanı olmadığı bir həqiqət olduğunu qeyd etmişdir. Müəllif, 1920-ci ilin əvvəllərində Azərbaycan, dağılan Osmanlı ordusunun zabit, əsgər və vətəndaşlarından ibarət bir qisminin sığındığı ölkə olduğunu, hər gələn türk zabitini, istər Azərbaycan xalqı, istərsə də hökumət xoş rəftarla qarşıladığını, hətta hökumət zabitlərin bir qisminə (orduya alınmadan) əmək haqqı verdiyini də vurğulamışdır (8, s. 268-269).

Nağı Şeyxzamanlının 1964-cü ildə yazdığı və "Azərbaycan istiqlal mücadiləsinin xatirələri" adı ilə İstanbulda nəşr etdirdiyi kitabı, 1997-ci ildə "Nağı Şeyxzamanlının xatirələri" adı ilə Azərbaycanda yenidən işıq üzü görmüşdür (9).

Məlumdur ki, N.Şeyxzamanlı 1919-cu ilin avqustundan 1920-ci ilin martına kimi "Əksinqilab ilə mübarizə təşkilatı"na rəhbərlik etmişdir. O, millətə, torpağa, istiqlala sədaqətlə xidmət edən bir insan olmuşdur. Onun Azərbaycanın gələcək istiqlalına çox böyük inamı vardı. O yazırdı: "Bütün müqəddəs ideyalara inandığım kimi buna da əminəm ki, nə rus, nə də başqa bir yad rejim köklü olaraq Azərbaycanda nə dayana biləcək, nə də yaşayacaqdır. İstiqlal fikrini və inamını bütün inanclarından üstün tutan Azərbaycan xalqı yenidən öz istiqlalına qovuşacaqdır" (9, s, 8).

Nağı bəyin XX əsrin əvvəllərində uzaqgörənliklə dediyi bu fikirlər XX əsrin sonlarında öz təsdiqini tapmış, Şimali Azərbaycan 1991-ci il oktyabrın 18-də öz müstəqilliyini bərpa etmiş və üç rəngli ay-ulduzlu bayraq yenidən xalqın başı üzərində dalğalanmağa başlamışdır.

N.Şeyxzamanlı Lenin, Stalin, Zinovyev, Kamenev, Kaqanoviç, Kirov, Xruşov, Vişinski və digərlərini günahsız insanların qatili olduğunu yazmışdır (9, s. 188). AXC-nin süqutunun səbəblərinə toxunarkən N.Şeyxzamanlı yazırdı: "1920-ci il aprelin 27-də Moskvanın əmri ilə Qızıl Ordu

ölkəmizə soxularaq respublikamızı işğal etdi və Milli hökumətimizi devirdi. Biz mühacirlər hər il bu məlum günü anaraq lənətləyirik" (9, s. 201).

Azərbaycanın Rusiya tərəfindən işğalının həm daxili, həm də xarici səbəblərinə aydınlıq gətirən N.Şeyxzamanlı, AXC-nin süqutunun səbəblərini öyrənmək üçün Kazım Qarabəkir Paşanın xatirələrinə müraciət etməyi məsləhət görmüşdür. Bununla əlaqədar N.Şeyxzamanlı yazırdı ki, o əsərdə (müəllif Kazım Qarabəkir Paşanın xatirəsini nəzərdə tutur-A.V.) nə qədər avantürist insanların özlərini Ankara münayəndəsi olduğunu deyib Azərbaycan xalqının içərisində yerləşdiklərini, Moskvadan küllü miqdarda pul alaraq çəpləndiklərini oxuya biləcəksiniz. Bu xarici nümayəndələrin törətdikləri fitnə-fəsatlar və təbliğatlar nəticəsində Azərbaycan xalqı anlamışdır ki, törədilən bu pis əməllərdən Ankara hökuməti xəbərsizdir. Bu pis əməllərə birbaşa yalançı nümayəndələr cavabdeh idilər (9, s. 201).

N.Şeyxzamanlı Qırmızı Ordunun Azərbaycan torpaqlarına hərbi təcavüzü, belə izah etmişdir: aprelin 27-də Qızıl Ordu Bakıya girir və hər tərəfdə mühüm dövlət məntəqələrini işğal edirlər. İlk tədbir olaraq mühafizə alayının adını dəyişib yardım alayı qoydular. İki gün sonra, yəni üçüncü günü Qızıl Ordu alayı mühasirəyə aldı və sıravilərin əllərindən silahlarını alaraq özlərinə də "Marş, marş evlərinizə" deyərək qovdular. Alayın ələ keçən zabitləri isə güllələndilər. Ələ keçməyənlər isə bir müddət gizləndikdən sonra canlarını qutararaq hərəsi bir tərəfə dağıldılar. Artıq bolşeviklərə görə bu avantüristlərin vəzifələri bitmiş hesab olunurdu (9, s. 204).

N.Şeyxzamanlı xatirəsində Azərbaycanın işğalını bir neçə yerdə təkrarlamış və hər dəfə də bu işğalın Azərbaycan xalqı üçün nə kimi bədbəxtlik gətirdiyini qeyd etmişdir. 1920-ci il aprelin 27-də kommunist Moskva yurdumuzu istila edərək istiqlalımıza son qoymuş olduğunu qeyd edən N.Şeyxzamanlı yazırdı ki, bolşeviklər istiladan sonra ilk iş olaraq məşhur şəxslərimizi hər vasitə ilə ortadan qaldırmağa başladılar. Bu repressiyadan canlarını qurtara bilənlər xarici ölkələrə getməyə məcbur oldular (9, s. 287).

Beləliklə, Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ilə əlaqədar olaraq mühacirət tarixşünaslığını təhlil edərkən gəlinən nəticələri aşağıdakı kimi müəyyənləşdirmək mümkündür: 1) İşğal ərəfəsində AXC hökumətində hakimiyyət böhranı yaranmış və rus ordusunun hərbi təcavüzünə arxalanan daxildəki kommunistlər bu böhrandan istifadə etmişdir; 2) Parlamentdə təmsil olunan partiyalardan Müsavat, İttihad, Hümmət, Əhrar və sosialist fraksiyasına daxil olan "xalqçı sosialist firqəsi" üzvləri hakimiyyətin müvəqqəti olaraq Azərbaycan kommunistlərinə verilməsinə razı olmuşdular; 3) Sovet Rusiyası, Azərbaycana hücumu ərəfəsində, xalqı sakitləşdirmək üçün bəyanat-lar və müxtəlif şüarlar vermiş, bu bəyanat və şüarların təbliğ olunmasında türk zabitlərindən də istifadə etmişdir; 5) xaricdən siyasi və hərbi kömək almaq imkanından məhrum olması, daxildəki pozucu qüvvələrin təxribatlarının qarşısını ala bilməməsi, əsas hərbi hissələrin Ararat (Ermənistan) Respublikasının hərbi təcavüzünün qarşısının alınmasına cəlb olunması və belə bir vəziyyətdə rus ordusunun Azərbaycana hərbi təcavüzü AXC-nin süqutuna səbəb olmuşdur.

**İstifadə edilmiş ədəbiyyat**


1. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1990, 116 s.
2. Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi.Bakı:Gənclik,1991,112 s.
3. RəsulzadəM.Ə. Əsərləri 1918 - aprel 1920. V c., Bakı: Qanun nəşriyyatı, 2014, 564 s.
4. Rəsulzadə M.Ə. Çağdaş Azərbaycan tarixi. Bakı, Gənclik, 1991, 112 s
5. Yaqublu N.Q. Məhəmməd Əmin Rəsulzadə Ensiklopediyası. Bakı: OL MMC, 2013, 506 s.
6. Rəsulzadə M.Ə Bolşeviklərin şərq siyasəti". Bakı: Sabah, 1994, 134 s.
7. Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı: Nicat, 1992, 246 s.
8. Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı: Azərnəşr,1992, 276 s.
9. Nağı Şeyxzamanlının xatirələri. Bakı: Qartal, 1997, 303 s.






## ОТРАЖЕНИЕ ПАДЕНИЯ АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ В ЭМИГРАНТСКОЙ ИСТОРИОГРАФИИ

**Резюме**


Следует особо отметить роль эмигрантской историографии в изучении проблематики указанной темы. Наряду с тем, что историография эмиграции, которая на протяжении 70 лет вела борьбу против Советской империи, вызывает большой интерес, её значение в деле изучения обозначенной темы также велико.

Лидеры Республики, а также многие представители азербайджанской интеллигенции, вынужденные после апрельского переворота 1920 года эмигрировать за рубеж, старались в своих трудах исследовать причины падения АДР.

В связи с данной проблемой, в эмигрантской историографии первой половины XX века особое значение имеют произведения М.Э.Расулзаде, М.Б.Мамедова, Х.Байкара и Наги бека Шейхзаманлы. В результате анализа упомянутых трудов было сделано заключение о том, что кризис власти АДР, произошедший 28 апреля 1920 года, лишение страны возможности получения политической и военной поддержки из-за рубежа, неспособность предотвратить внутреннюю диверсию враждебных сил, привлечение основных военных частей в целях предотвращения военной агрессии Армянской Республики, посягавшей на азербайджанские земли и, в сложившейся ситуации, военная агрессия российской армии – все эти факторы послужили причиной свержения правительства независимого Азербайджана.


## REFLECTION OF THE FALL OF THE AZERBAIJAN PEOPLE'S REPUBLIC IN THE EMIGRANT HISTORIOGRAPHY

**Summary**


It should be noted in particular the role of emigrant historiography in the study of problematics of the mentioned issue. Along with the fact that immigrant historiography, which for 70 years fought against the Soviet Empire, is of great interest, its value in the study of the theme is also great.

The leaders of the Republic, as well as many representatives of the Azerbaijani intelligentsia, forced after the coup of April 1920 to emigrate abroad, tried to investigate the causes of the fall of Azerbaijan People's Republic in their works.

In connection with this problem, works of M.A.Rasulzadeh, M.B.Mammadzadeh, H.Baykara and Nagi bey Sheykhzamanly are of particular importance in the emigrant historiography in the first half of the 20th century. At the result of the analysis of the mentioned works, it was concluded that the crisis of Azerbaijan People's Republic's power that occurred on April 28, 1920, the country's deprivation to get the political and military support from outside, inability to prevent internal sabotage of destructive forces, involving the main military units in order to prevent the military aggression of the Armenian Republic encroaching on the lands of Azerbaijan, and in this situation, military aggression of the Russian army - all of these factors caused the overthrow of the government of independent Azerbaijan.